AĞSTAFA



# "VƏTƏN UĞRUNDA"

## KİTABININ TƏQDİMATI

**Ali Baş Komandan İlham Əliyevin əmri ilə Azərbaycan əsgərləri "Dəmir yumruq" əməliyyatı ilə cəmi 44 gün ərzində torpaqlarımızı işğaldan azad etdilər. Bu zaman ölümün gözünə dik baxan, qəhrəmanlıqlar göstərən, məramları yalnız vətən torpaqlarını işğaldan azad etmək, hətta qanından və canından keçməyə hazır olan şəhidlərimizin xatirəsini əbədiləşdirmək hər bir azərbaycanlının mənəvi borcudur. Yaradıcı insanlar əldə olunan tarixi qələbəni gələcək nəslə çatdırmaq üçün onlar haqqında kitablar yazırlar.**



Bu günlərdə Ağstafada şəhid ailələri ilə görüş keçirilmişdir. Rayon Mədəniyyət Mərkəzində keçirilən tədbirdə ilk olaraq Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Tədbirdə Mədəniyyət Mərkəzinin direktoru Leyla İsayeva, Ağstafa Rayon Gənclər və İdman İdarəsinin rəisi Əziz Məsmalıyev, Mərkəzi Kitabxana Sistemləri İdarəsinin müdiri Solmaz Nagiyeva və şairə Gulamayıl Murad Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin qəhrəmanlıq salnaməsindən danışdılar.

Qeyd olundu ki, Vətən müharibəsində Azərbaycan xalqının möhtəşəm zəfər qələbəsi dünyada mərdlik və qəhrəmanlıq nümunəsidir. Ali Baş Komandan cənab İlham Əliyevin siyasi iradəsi və Azərbaycan ordusunun qətiyyətli döyüş həmləsi nəticəsində 30 ilə yaxın bir dövrdə işğal altında olan torpaqlarımız azad olundu. İşğala son qoyulması minlərlə qəhrəman övladlarımızın qanı bahasına başa gəldi. Bu gün hər bir şəhidimizin xatirəsi xalqımız tərəfindən əziz tutulur və əbədiləşdirilir.

Tədbirdə şairə Gulamayıl Muradın Agstafa şəhidlərinə həsr olunmuş "Vətən uğrunda" kitabı şəhid ailələrinə təqdim olundu. Görüşdə Vətən müharibəsinin qəhrəmanı, şəhid Azər Yusiflinin atası Nazim Yusifli və şəhid İbrahim Cəfərovun atası Şamil Cəfərov göstərilən diqqət və qayğıya görə xalqımıza və dövlətimizə şəhid ailələri adından minnətdarlıqlarını bildirdilər.

**Vəli VƏLİYEV,**
**"Respublika".**